**UOT 39**

**ƏMİNƏ İMANZADƏ**

*Azərbaycan Dillər Universiteti*
*Qərb ölkələri üzrə Regionşünaslıq kafedrası, müəllim*
**eminesixaliyeva@gmail.com**

# AMAZONUN YERLİ XALQLARI VƏ ONLARIN ETNİK XÜSUSİYYƏTLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/111/260-266

*Təbiətimizin ən mürəkkəb və gözəl təbii xəzinələrindən biri olan Amazon meşəsi, möhtəşəm varlıqlara ev sahibliyi edir. Əsrlər əvvəl Asiyadan köç edən insanların bu torpaqlara gəldiyi və özlərinə məxsus unikal həyat tərzi yaratdıqları düşünülür. Böyük Coğrafi Kəşflər dövründən bəri bizlərin "hindular" adlandırdığımız insanlar, özlərinin unikal inancları və etnoqrafik ənənələri ilə hər zaman diqqət mərkəzində olub. Təəssüf ki, təbii gözəlliyi və geniş ərazisi ilə seçilən Amazon meşəsi, kolonistlərin diqqətindən qaçmadı – işğal və hinduların soyqırımı prosesi başlandı. 16-cı əsrdən bəri kolonial hücumlara məruz qalan hinduların sayı əhəmiyyətli dərəcədə azaldı və bu, bu gün də davam etməkdədir. Hökumətlər tərəfindən bu xalqların torpaqları və hüquqları tanınsa da, nəzarətsiz meşə qırılması, fermerlər və qızıl ovçuları tərəfindən edilən hücumlar səbəbindən onlar hələ də evlərini, torpaqlarını və hətta həyatlarını itirməkdə davam edirlər. Bu məqalədə Amazon bölgəsində yaşayan əsas tayfalar, onların etnik ənənələri, təbiətə töhfələri, kənd təsərrüfatı üsulları və müasir dövrdə qarşılaşdıqları problemlər müzakirə edilir.*

*Açar sözlər:* Amazon, hindu, tayfa, animizm, şaman, Braziliya.

***Giriş.*** Uzun illər boyu kainatın ən mürəkkəb ekosistemlərindən biri olan Amazon hövzəsi bir çox yerli cəmiyyətlərə ev sahibliyi etmişdir. Bu yerli cəmiyyətlər Braziliya, Peru, Kolumbiya, Venesuela, Qayana, Surinam, Ekvador, Boliviya, Fransız Qvianası boyu səpələnmiş və bu nəhəng meşənin qoruyucusu olmuşlar. Bəzi araşdırmalara əsasən Amazonda həyat 32000 və ya 39000 il əvvəl başlamışdır [9]. O dövrdən etibarən bu ərazilərdə yaşayan insanlar bu torpaqlarla yaxından tanış olmuş, onun üstünlüklərini və sərhədlərini öyrənmiş, təbiətlə iç içə bir həyat yaşamışlar. Minlərlə il əvvəldən insanlar bu ərazilərdə fərqli mədəniyyətlər, inanclar formalaşdırmışlar. Alimlər əvvəllər bu torpaqlardakı mədəniyyətlərin köçəri həyat tərzi, ibtidai həyat tərzi ilə məhdudlaşdığını düşünsələr də, son araşdırmalar bunun əksini sübut edir. Kolumdan əvvəlki dövrdə təqribən 8-10 milyon insanın Amazonda yaşadığı ehtimal edilməkdədir. Amazon yerliləri landşaft ustaları idilər. Onların ətraf mühiti güclü idarə edə bilmək qabiliyyəti var idi, belə ki, alimlər müəyyən edib ki, onlar sıx kanal və çay şəbəkələri yaratmış, Amazonun qara torpaqlarından məharətlə istifadə etmiş, istədikləri canlıları bölgəyə cəlb edə bilmiş, öz istəklərinə uyğun idarə edilən meşə yanğınlarından istifadə etmişlər. Yerli hindular Amazonun qara dünyası (black earth) adı verilən, xüsusilə məhsuldar olan torpaq forması yaratmışlar ki, alimlər Amazonun 3-10% arası torpaqlarının bu vəziyyətdə olduğunu müəyyən ediblər. Bu torpaq yerli hinduların uzun illər istifadə etdiyi qarışıqların (bitki, kömür, heyvan sümükləri və s.) nəticəsində formalaşırdı. Eyni zamanda son araşdırmalar bu nəhəng yağış meşələrindəki bir çox ağacların insan istifadəsi üçün əhlilləşdirildiyini sübut edir.

Təəssüf ki, XV əsrin əvvəllərindən etibarən Avropalıların səfərləri nəticəsində yerli xalqın çox hissəsi məhv edilmişdir. Avropalıların bu torpaqlarda əsas məqsədi qızıl və digər resurslara nəzarət etmək, onları Avropaya aparmaq idi. Bu məqsədə nail olmaq üçün onlar yerli xalqlar arasında xəstəlik, aclıq yayır, müharibə aparır, müxtəlif yollarla onları torpaqlarından uzaqlaşdırmağa çalışırdılar. Amazon xalqının demoqrafik göstəriciləri 95% azalmışdır, artıq bu torpaqlarda təxminən 50 milyon insan yaşamaqdadır. Bugün Amazonun əhalisinin 1,5 milyonu təqribən 385 etnik qrupda birləşmiş yerli hindulardır. Təkcə Braziliyada 900 mindən çox yerli hindu yaşayır ki, onlar 275-dən çox dildən istifadə edirlər. Onların içərisində böyük etnik qruplar olmaqla birlikdə, yox olmaq təhlükəsində olan bir neçə nəfərlik qruplar da mövcuddur [6].

Ənənəvi olaraq, Amazon bölgəsində yaşayan yerli icmalar çoxsaylı tanrı, heyvan və əşyaları müqəddəs hesab edirdilər. Onların çoxu təbiətlə bağlı idi və bu mədəniyyətlərin əksəriyyəti animizmə inanırdı, yəni hər bir əşyanın və varlığın ilahi ruh daşıdığı düşünülürdü. Bu gün də bəzi Amazon xalqları ənənəvi həyat tərzini davam etdirir, hətta bəziləri hələ də xarici dünya ilə təmas qurmayıb. Lakin əksər qruplar Qərb mədəniyyətindən müəyyən elementləri qəbul etmişlər.

Yerli icmaların idarə etdiyi torpaqlar adətən mühüm ekosistemlərlə üst-üstə düşür və onlar çox vaxt adi qoruqlardan belə daha zəngin bioloji müxtəlifliyə sahib olur. Bunun əsas səbəbi həmin icmaların ətraf mühiti qorumaqda uğurlu ənənələrə malik olmalarıdır. Bu səbəbdən də yerli xalqlara kifayət qədər hüquqi təminat verilməsi zəruridir ki, həm öz təbii hüquqlarını qorusunlar, həm də torpaqlarını effektiv şəkildə müdafiə edə bilsinlər. Hazırda Amazon hövzəsinin təxminən 28%-i yerli xalqların istifadəsindədir və bu ərazilərin təqribən 80%-i milli qanunvericilikdə rəsmən tanınır [1, s.30].

Amazonun yerli xalqları yalnız mədəni irsləri ilə deyil, həm də ənənəvi ekoloji biliklərin qoruyucusu olmaları ilə seçilirlər. Bu biliklər müasir tibbdə ən çox istifadə olunan dərman vasitələrinin bir qisminin yaranmasına töhfə vermişdir. Məsələn, aparılan bir tədqiqat göstərmişdir ki, Braziliyanın Yuxarı Neqro çayı bölgəsində yaşayan icmalar yalnız malyariyanın müalicəsi üçün 55 bitki növündən istifadə edirlər.

Uzun illər Amazonda yaşayan insanlar timsah, tısbağa, kapabara kimi heyvanları ovlayır, ucu zəhərli nizələr, oxlardan istifadə edirdilər, müasir dövrdə isə onların yerini təhlükəli silahlar almış, həm burada yaşayan insanları, həm də təbiəti təhdid etməkdədir. Burada ibtidai qrupda yaşayan ovçu- yığıcı qruplar uzun illər köçəri həyat sürmüşlər, yəni resurslar tükənə qədər bir ərazidə yaşayıb, sonra yeni yerə köçürdülər, lakin yerli olmayan xalqlar tərəfindən bu meşələrin kolonizasiyalaşdırılması nəticəsində onlar oturaq həyat tərzinə keçməyə məcbur oldular və kəndli həyatı yaşamağa başladılar. Bu cür dəyişikliklər isə öz növbəsində yerli adət-ənənələrin məhv olmasına, həyat tərzinin dəyişilməsinə səbəb olur. Bu dəyişikliklər isə sadəcə qızıl mədənçiləri, ağac kəsənlər və digər kolonizasiya işləri ilə məşğul olanlara sərf edir. Amazonun yerli icmaları tez-tez zorakılıqlara məruz qalırlar. Global Witness təşkilatının məlumatına əsasən, 2015–2019-cu illər arasında qətlə yetirilən ekoloji fəalların 40%-i məhz yerli xalqlardan idi. Bu hadisələrin çoxu mədənçilik, kənd təsərrüfatı, bənd tikintisi və meşələrin qırılması ilə bağlı münaqişələrdə baş verib. Amazon bu baxımdan dünyada ən təhlükəli məkanlardan biri sayılır.

Qeyd etdiyimiz kimi, Amazon meşələri müxtəlif ölçülərdə bir çox tayfalara ev sahibliyi etməkdədir ki, onlar da bir-birindən yaşayış tərzlərinə, inanclarına, adət-ənənələrinə görə fərqlənir. Amazonda yaşayan bəzi tayfaların əraziləri bəzən 2 və daha çox dövlətin ərazisinə düşə bilir. Bu əsasən yerli xalqların hələ iberiyalıların işğallarından və siyasi dövlətlərin qurulmasından əvvəl burada yaşaması ilə əlaqədardır. Məsələn, Amazonun ən böyük tayfası Yanomamilər Venesuela və Braziliya, Açuar xalqı isə Peru və Ekvador ərazilərində yaşayır [2]. Aşağıda Amazon meşələrində ölçülərinə və məhşurluğuna görə ön plana çıxan bir neçə tayfa haqqında məlumat verilmişdir:

***Yanomamilər.*** Bu xalq Amazon tayfaları içərisində ənənəvi yaşayış tərzinə görə fərqlənir və ölçüsünə görə ən böyük qruplardan hesab olunur. Yanomamilər əsasən ovçuluq və kənd təsərrüfatı ilə məşğul olur və yarı köçəri həyat yaşayırlar. Müasir Braziliya və Venesuelada yaşayan Yanomami, Amazonun ən çox təcrid olunmuş yerli tayfalarından biridir. Yarımköçəri xalq kimi xarakterizə olunan Yanomami, yaşamaq üçün əkinçilikdə yandırma, şumlama üsulundan, həmçinin ovçuluq və balıqçılıqdan istifadə edir. Yanomamilər icma kəndlərində birlikdə yaşayır, təsərrüfat fəaliyyətində birlikdə iştirak edirlər. Onların evləri Yano adlanır və əsasən taxta və palma yarpaqlarından hazırlanırdı. Bu evlər fərdi deyil, icma evləri idi, yəni bir yanoda bir neçə ailə birlikdə yaşayırdı. Bütün Yanomamilar eyni kənddə yaşamır – Yanomami sadəcə olaraq oxşar mədəniyyət, dil və inanclara malik insanların ümumi adıdır. Hər bir kənd iqtisadi və siyasi cəhətdən müstəqil hesab olunur. Evliliklər əsasən müxtəlif kəndlərin üzvləri arasında baş verir – bu isə göstərir ki, kəndlər arasındakı siyasət ailə əlaqələri ilə formalaşır. Bundan əlavə, Yanomamilər poliqamiyanı tətbiq edir, yəni bir kişinin birdən çox arvadı olur. Ənənəvi olaraq Yanomamilar çoxlu paltar geyinmirlər; kişilər qısa kəmər (loincloth) taxır, qadınlar isə özlərini əsasən çiçəklər və lələklərlə bəzəməyi üstün tuturlar. Daha sonra, Yanomamilar animizmə qəti şəkildə inanırlar ki, bu onların mədəniyyətinin mühüm hissəsini təşkil edir. Cəngəllikdə yaşayan həm

yaxşı, həm də pis ruhların mövcudluğuna inanırlar, onlarla əlaqəni isə şamanlar vasitəsilə saxlayırlar. Yanomamilər həm də meşədə şamanlara ruhlara tapmağa kömək edən antropomorfik varlıqların olduğuna inanırlar. Bu inanclar nəsildən-nəsilə ötürülür və mövcudluğu davam etdirilir [6]. Müşahidələrdən belə nəticəyə gəlmək olar ki, Yanomamilar ətraf mühitdən çox asılıdır və onun təqdim etdiyi bütün resursları dərindən qiymətləndirirlər. Bu nəticə mühüm əhəmiyyət daşıyır və Yanomamiların kənar təsirlərdən necə təsirlənməsində böyük rol oynayır.

Yanomami həyatı böyük həcmdə ənənələr əsasında idarə olunur. Həyatın ilk günündən son anınadək rituallar həyata keçirilir və həyatın hər bir dövrü bir-biri ilə əlaqəli hesab olunur. Yanomami mədəniyyəti ümumilikdə birlikdəyi vurğulayır və təbiətə dərin hörmət ilə ehtiva olunur.

***Kayapolar.*** Kayapó tayfası əsasən Braziliyanın mərkəzi bölgəsində yaşayır və həm döyüşkən ənənələri, həm də parlaq bədən boyamaları ilə tanınır. Onlar uzun illər boyu meşələrin məhv edilməsinə və mədənçilik fəaliyyətinə qarşı güclü müqavimət göstərmiş, torpaqlarını qorumaq məqsədilə beynəlxalq miqyasda kampaniyalar aparmışlar. Tayfa mürəkkəb ictimai quruluş və idarəetmə sistemi ilə seçilir, onların liderləri isə həm müdrikləri, həm də təsirli natiqlik bacarıqları ilə tanınır. Kayapó xalqının dərman bitkiləri və ekoloji cəhətdən davamlı əkinçilik barədə topladığı biliklər onların tropik meşə ekosistemini dərindən anladıqlarını sübut edir [3].

***Aşaninkalar.*** Bu tayfa kolonizasiya sisteminə qarşı apardıqları güclü mübarizə ilə tanınırlar və əsasən, Peru və Qərbi Braziliya ərazilərində yaşayırlar. Onlar əsasən kəndlərini çay kənarına inşa etmiş və kənd təsərrüfatı, ovçuluq və balıqçılıqla məşğul olurlar. Aşaninkaların ən məhşur xüsusiyyətlərindən biri lələkli baş geyimləridir. Pambıq toxunması ilə məşğul olan bu xalq mədəni cəhətdən dərin ruhani mif və əfsanələrə inanır.

***Tikunalar.*** Sayı 50.000-dən çox olan Tikuna xalqı, əsasən, Braziliya, Kolumbiya və Perunun sərhəd bölgəsində yaşayır. Onların dili Amazondakı digər dil ailələri ilə əlaqəsi olmayan, təcrid olunmuş dildir. Tikuna cəmiyyəti tarixən yarı köçəri idi, lakin bir çox icmalar və xarici təzyiqlər səbəbindən daha çox oturaq həyat tərzinə keçmişdilər. Onlar mürəkkəb bədən rəsmləri, ənənəvi rəqslər və nağılları əhatə edən, xüsusən gənc qadınlar üçün hazırlanmış yetkinlik mərasimləri ilə tanınırlar.

***Tipu xalqı.*** Bu xalq XVI əsrdə Braziliyaya gələn portuqallarla qarşılaşan ilk xalqlardan olmuşdur. O dövrdə tipular Braziliyanın həm sahil, həm də daxili hissələrdə böyük ərazilərə yayılmışdılar. Onların keçmişi sosial nizamın önəmi və torpağa bağlılıqla xarakterizə olunur. "Paje" adlandırılan şamanlar tipu mədəniyyətinin əsas hissəsini təşkil edirdi, eyni zamanda onlar ölmüş əcdadlarının ruhlarının cavanlara təsir etdiyinə inanırdılar. Tipu xalqı da digər tayfalar kimi icma halında "maloka" adlanan evlərdə yaşayırlar. Kənd təsərrüfatında kəsmə və yandırma (slash and burn) metodundan istifadə edirlər. Bu metoda əsasən əkinçiliklə məşğul olmaq istədikləri ərazilərdəki bitkiləri kəsərək qurumağa buraxırlar, quruduqdan sonra isə onu yandıraraq torpağı yanmış bitki külləri ilə zənginləşdirirlər və bir neçə il müddətinə həmin sahədə əkinçiliklə məşğul olurlar. Tipuların əsas bəzəyi cəngəllikdəki bitkilərdən əldə etdikləri təbii boyalarla bədənlərinə çəkdikləri naxışlardır. Əslində bu naxışlar bəzəkdən çox şəxsin tayfa içindəki yerini, uğurlarını, nailiyyətlərini göstərir. Onlar həm də daha çox quş lələklərindən hazırlanmış baş geyimləri və bəzək əşyaları da taxırlar. Tipular üzərində müxtəlif həndəsi fiqurların olduğu saxsı qablar hazırlıyırdılar ki, onlar da həm gündəlik həyatda, həm də mərasimlərdə istifadə olunurdu [6].

***Amazon xalqlarının ətraf mühit bilikləri.*** Braziliya Amazonunun dərinliklərində yerli icmalar dünyaya iqlim dəyişikliyinə qarşı əsl dözümlülüyün necə göründüyünü nümayiş etdirirlər. Amazon yağış meşəsi planetin ən mühüm ekosistemlərindən biridir, lakin eyni zamanda iqlim dəyişikliklərindən ən çox zərər görən bölgələrdəndir. Bir vaxtlar sağlam olan meşələrin böyük sahələri dağıdıcı quraqlıqlar, amansız yanğınlar və nəzarətsiz meşəsizləşmə nəticəsində ciddi ziyan görüb. Yerli xalqlar üçün bu dəyişikliklər sadəcə ekoloji deyil - onların mədəni kimliklərinin mərkəzinə zərbə vurur. Meşələr onlar üçün qida, dərman, dolanışıq, təhlükəsizlik və mənəvi dəyərlərin əsas mənbəyidir. Buna baxmayaraq, Braziliyanın şimalında yerləşən Roraima əyalətində yaşayan icmalar nəsillər boyu topladıqları ekoloji biliklərə söykənərək baş verən dəyişikliklərə uyğunlaşır, mədəniyyətlərini, torpaqlarını və həyat tərzlərini qorumağa çalışırlar. Bu icmalar qeyri-adi adaptasiya yolları ilə davamlılıq nümayiş etdirir və davam edən ekoloji böhran fonunda dünyaya həqiqi müqavimətin nümunəsini göstərirlər.

Əsrlər boyu Qərb ölkələri Amazon meşəsini insanlar tərəfindən çox məskunlaşılmamış, toxunulmamış, qonaqpərvər olmayan, qeyri-məhsuldar torpaq hesab edirdilər, eyni zamanda o dövr üçün aparılan tədqiqatlar, elmi yanaşmalar da bu istiqamətdə formalaşırdı. Amerika hindularının barbar, vəhşi, davakar olduqları düşünülürdü və onlarla əlaqənin də sanki vəhşi heyvana yaxınlaşılırmış kimi davranılması münasib qəbul edilirdi. Son dövrlər aparılan tədqiqatlar isə bunun tam əksini sübut edir. Amazonun bugünkü rəngarəngliyinin, biomüxtəlifliyinin əsasında hinduların uzunillik təcrübələrinin, praktikalarının olduğu müəyyən olunur. Amazon xalqları haqqında əvvəlki elmi araşdırmalar onların primitiv cəmiyyətə malik olduğu, hər-hansı texnoloji və digər istiqamətlərdə inkişafın digər regionlardan bu ərazilərə gətirildiyi düşünülürdü. Məsələn, hinduların həm gündəlik yaşantılarının, həm də rituallarının ayrılmaz hissəsi olan keramika qabların And dağlarında yaşayan daha mürəkkəb sistemə malik xalqlar tərəfindən istehsal olunub bu ərazilərə gətirdiyi ideyası mövcud idi. Müasir elm adamları isə bu fikirlə qəti şəki razılaşmır və tam əksini iddia edirlər. Braziliyalı arxeoloq E.G.Neves öz komandası ilə birlikdə Amazon xalqlarının əslində texnoloji inkişafın mərkəzi olduğunu sübut edən araşdırma həyata keçirir. Bu qrup tərəfindən aparılan araşdırma 8000 və daha çox müddət əvvəl bu ərazilərdə 8-10 milyon insanın sıx yaşadığını, məqsədyönlü fəaliyyət nəticəsində torpağı dəyişdirə bildiklərini göstərir [10].

***Terra preta.*** Amazon yerli mədəniyyətlərinin ən diqqətəlayiq cəhətlərindən biri onların tropik meşə ekosistemi haqqında misilsiz biliklərdir. Nəsillər boyu onlar resursları tükənmədən qida istehsalını təmin edən kənd təsərrüfatı texnikalarını inkişaf etdirmişlər. Bir ərazidə müxtəlif bitki növlərinin yetişdirilməsi kimi aqromeşəçilik sistemləri tropik meşələrin təbii biomüxtəlifliyini təqlid edir, torpağın münbitliyini qoruyur və məhsul çatışmazlığı riskini azaldır. Terra preta və ya "qaranlıq torpaq" təcrübəsi uzunmüddətli, münbit torpaq yaratmaq üçün torpağı biokömür, üzvi maddələr və mikroorqanizmlərlə zənginləşdirməyi nəzərdə tutur. Bu yenilik yerli xalqların Avropa təmaslarından çox əvvəl qabaqcıl ətraf mühit mühəndisliyi bacarıqlarını nümayiş etdirir. Amazonun terra pretası adi torpaqlardan xeyli fərqlənir: o, daha tünd rəngdədir - qara və ya tünd qəhvəyi, daha münbitdir və bölgənin digər torpaqlarına nisbətən çox daha çox üzvi karbon saxlayır. Fosfor, azot və kalsiumun yüksək miqdarı sayəsində əkinlər burada daha məhsuldar şəkildə böyüyür. Bundan əlavə, güclü karbon tərkibi səbəbilə alimlər terra pretanı istixana qazlarını udaraq saxlayan vacib bir karbon anbarı hesab edirlər.

Adətən terra preta arxeoloji ərazilərin yaxınlığında rast gəlinir və tərkibində kömür qalıqları, qida tullantılarından gələn üzvi maddələr - məsələn, balıq və heyvan sümükləri, həmçinin qədim gil qab parçaları olur. Bu isə qədim sivilizasiyaların onun yaranmasında rol oynamış ola biləcəyini göstərir.

Tədqiqatçılar qədim və tarixi kəndlərin meydanları və yollarının kənarındakı qara torpaq təpələrindən götürülən nümunələri həmin yerlərin ətrafındakı torpaqla müqayisə etdilər. Nəticədə məlum oldu ki, yaşayış sahələrindən götürülən torpaqda üzvi karbon miqdarı iki dəfədən çoxdur və turşuluq dərəcəsi ətraf torpağa nisbətən bir vahid daha azdır. Bu isə həmin torpağı xeyli münbit edir. Bundan başqa, yaşayış yerlərindəki nümunələrdə insan fəaliyyəti ilə əlaqəli elementlər - fosfor, kalium və kalsium kənar torpaqlara nisbətən qat-qat daha sıx toplanmışdı. Burada aparılan araşdırmalarda tədqiqatçılar müşahidə etdilər ki, sakinlər balıq və kassava tullantılarını yığıb 60 santimetrədək yüksələn zibil təpələri əmələ gətirirlər. Çürüyən maddələrin qida elementləri illər ərzində torpağa hopur. Bir neçə ildən sonra isə bu zənginləşmiş torpaq kənd təsərrüfatı üçün istifadə olunur, çünki adi torpaq belə məhsuldarlıq vermir. Tədqiqatçılar həmçinin qeyd etdi ki, Kuikuro xalqından olan fermerlər qəsdən üzvi kül və kömür, eləcə də kassava qalıqlarını sahələrə səpirlər. Onlar bu torpağı ilũbepe ("kül olmuş şey") adlandırır və belə sahələrdə gələcəkdə əkilən məhsullar üçün münbit qara torpaq - eegepe yaradırlar.

***Kolonizasiya prosesi və Amazon xalqlarının yaşadığı çətinliklər.*** Amazon yağış meşələri bir çox yerli xalqlara ev sahibliyi etməkdədir. Belə ki Amazon meşələrinin Braziliyaya düşən hissəsində bir çox xalqlar hələ də digər etnik qruplarla ünsiyyətə keçmədən yaşamaqdadırlar. Braziliyanın yerli xalqları üzrə idarəetmə agentliyinin qısaca FUNAİ-nin verdiyi məlumatlara əsasən bu meşələrdə 100-dən çox belə yerli xalqlar yaşamaqdadır [11]. Bu xalqlar öz istəkləri əsasında digər yerli xalqlarla və müasir dünya ilə əlaqəyə keçmək istəmirlər. Bunun əsas səbəblərindən biri keçmişdə yerli xalqlarla bağlı yaşanmış problemlərdir ki, bu xalqların kölələşdirilməsi, kolonizasiya prosesinə məruz qalması və tədricən yox olması digər etnik qrupları müasir dünya ilə əlaqə qurmaqdan çəkindirir. Məsələn, müasir dövrdə Akre ştatında mövcud olan və digər etnik qruplarla əlaqəyə keçməyən yerli xalqların əsas hissəsinin keçmişdə plastik partlayışı dövründən sağ qalmış nəsillərin davamçıları olduqları

təxmin edilir. Xüsusilə 19-cu əsrin ortalarından Braziliyada dünya üzrə plastikə olan tələbatın artması nəticəsində Amazon meşələrinin kolonizasiya prosesinin sürətləndirilməsi baş vermişdi. Belə ki, burada olan yerli xalqların torpaqları işğal edilir, özləri kölələşdirilir, öldürülür, buradakı mədənlərdə uzun müddət işlədilirdilər, ağır işlərə məruz qalırdılar. Bu proses də öz növbəsində bir çox xalqların yerli insanlarının ölümünə səbəb olmuşdur, onlardan sağ qalanlar isə artıq müasir dünya ilə ünsiyyətə keçməkdən çəkinirlər. Güman edilir ki, sağ qalanlar yaxınlıqdakı çaylar vasitəsilə qaçanlar olmuşdur. Bu insanlarla bağlı çox məlumat bəlli deyildir, çünki onlar digər insanlara, təyyarələrə ox atır, ünsiyyətə girməmək üçün meşələrin dərinliklərində gizlənirlər. Əcdadlarına qarşı edilmiş vəhşiliklər onların xatirəsində hələ də öz yerini qoruyur. Braziliyada plastik partlayışı qısa müddətdə ölkənin iqtisadiyyatının güclənməsinə və sürətlə inkişaf etməsinə səbəb olmuşdu və belə bir sürətli inkişaf öz növbəsində hökuməti bu prosesi daha da sürətləndirməyə və Amazon meşələrindəki kolonizasiya prosesini daha da gücləndirməyə sövq edirdi. Daha sonra isə Cənub Şərqi Asiyada da bu plastik sənayesinin inkişaf etməsi nəticəsində, artıq Braziliyadakı partlayış sönmüş və buradakı işlər zəifləmişdi. Bu da öz növbəsində bu ərazidəki xalqların daha rahat yaşamasına və kolonizasiya prosesinin səngiməsinə səbəb olmuşdur.

Amazonda mövcud olan yerli qruplardan biri də Awa xalqıdır ki, onlar əsasən ovçuluq, yığıcılıqla məşğul olurlar. Bu xalqın nümayəndələri daim hərəkətdədirlər, belə ki, onlar saatlar içərisində özlərinə ev qurur və bir neçə gün orada qaldıqdan sonra həmin yeri tərk edirlər. Amazon meşələrində daha oturaq həyat yaşayan xaqlar da yaşayır. Onlar ovçuluq və əkinçiliklə məşğul olurlar, maniok və digər bitkiləri yetişdirirlər, balıqçılıqla məşğul olurlar. Massako ərazisində 300- ə yaxın müasir dünya ilə ünsiyyətə keçməyən aborigenin olduğu düşünülür. Onların uzun ox və kamanlardan istifadə etdiyi bildirilir. Yaşadıqları yerlərdə tapılan tısbağa çanaqları bu xalqın mətbəxində tısbağanın önəmli qida olduğunu göstərir. Amma bu xalqların içərisində sayı hədsiz azalmış, yox olmağa doğru gedən xalqlarda mövcuddur ki, onlar daha Mato Grosso, Rondonia, Maranhayo ştatlarında yaşayırlar. Bu xalqlar burada qeyri-qanuni ağac kəsmə işləri aparan qruplar, fermerlər və onların torpaqlarını ələ keçirmək istəyənlər tərəfindən öldürülürlər.

Eyni zamanda hökümətin Amazonda yol, ev inşa etmə layihələri də bu xalqlar üçün böyük bir təhditdir. Yerli xalqların hamısı bizim üçün çox sadə görünən qrip, soyuqdəymə kimi xəstəliklərə qarşı çox zəifdir. Bu kiçik xəstəliklər aborigenlər üçün ölümə səbəb ola bilir. Awa xalqında olan Karapiru adlı bir gənc oğlan meşədə silahlı adamların hücumuna məruz qalmış və onlardan qurtulmağı bacararaq on il müddətində meşənin dərinliklərində tək yaşamışdır. Ancaq uzun müddətdən sonra digər kolonistlər ilə ünsiyyətə keçmiş və öz xalqı ilə yenidən yaşamağa başlamışdı. Karapiru 2021-ci ildə Covid-19 səbəbi ilə həyatını itirmişdi [11].

Müasir dünya ilə ilk əlaqə daim hindular üçün faciəvi olmuşdur. İlk ünsiyyətdən sonrakı bir il ərzində xalqın yarısından çoxunun tələf olması artıq gözlənilən haldır. Buna misal olaraq Braziliyanın Matis xalqını göstərmək olar. Onların müasir dünya ilə əlaqə qurmasından çox qısa müddət sonra bu xalqın üzvlərinin sürətli ölməsi müşahidə edilməyə başlanmışdı. Ölənlərin içərisində həm qocalar, həm cavanlar, həm də şamanların çox hissəsi var idi. Matislilərin özləri qeyd edir ki, xarici dünya ilə ünsiyyət qurduqdan sonra özümüzdə bilmədən hamımız pnevmaniya olmuşduq.

Amazonun yerli xalqlar yaşayan hissələrində aparılan iqtisadi failiyyətlər çox zaman ölümlərə səbəb olur. Buna misal olaraq, Akuntsu qəbiləsini göstərə bilərik. Bu qəbilənin sadəcə üç nümayəndəsi sağ qalıb və onlar Braziliyanın Rondonia hissəsində 2 yerli kiçik evdə yaşayırlar. 1980-ci illərdə FUNAİ tərəfindən aparılan təqdiqatlar Akuntsu qəbiləsinin üzvlərinin fermerlərin tutduğu silahlı adamlar tərəfindən böyük bir qətliam ilə üzləşdiyini sübut edir. Qəbilənin buldozerlərlə əzilmiş və yox edilməyə çalışılmış malokka- yəni evlərinin izləri tapılmışdı. Bu xalqın son nümayəndələri 1995-ci ildə aşkar edilmişdi. 2009-cu ildə ən qoca nümayəndələrinin ölümü ilə birlikdə xalqın sadəcə üç nümayəndəsi həyatdadır. Linqvistlər Akuntsulularla danışıqlar aparıb, onların səslərini yazaraq dillərini öyrənməyə çalışır. Xalqın nümayəndələri digər etnik qruplarla ailə qurmağı rədd edirlər, belə olduğu təqdirdə isə bu qəbilənin yox olmağı qaçınılmazdır. Yəni qısa bir müddət sonra fermerlərin acgözlüyü və vəhşiliyi nəticəsində daha bir yerli qəbilə tarix səhnəsindən silinəcək və beləcə biz daha bir unikal mədəniyyəti itirmiş olacağıq [11].

***Nəticə.*** Ümumilikdə Amazon hinduları əsrlər boyu bu ərazilərdə yaşamış, təbiətə bağlanmış, həyatının hər bir sahəsində təbiətlə həmrəy olmuş, balanslı şəkildə əlaqələr yaratmış torpağın gerçək sahibləridir. Etnoqrafik cəhətdən kifayət qədər rəngli olan bu xalqlar ənənələrinə sadiqliyi ilə seçilir. Təəssüf ki, yaradıcı və barışçıl olan bu xalqlar tarix boyu soyqırımlara, xəstəliklərə, basqınlara məruz qalmışlar və çox təəssüf ki, bu proseslər müasir dövrdə də davam edir. Müasir dövrdə isə keçmişdən fərqli olan onlara olan diqqət artmaqda və mövcudluğunun vacibliyi vurğulanmaqdadır. Dövlətlərin və təşkilatların səyləri onların mövcudluğunu qorumaq və dəyərli ənənələrinin, təcrübələrinin növbəti nəsillərə ötürülməsini təmin etməkdir. Bu xalqların təcrübəsinin öyrənilməsi, mədəni irsinin qorunması həm mədəni tariximizin, həm də dünyamızın gələcəyi baxımından olduqca önəmli və aktual məsələdir.

ƏDƏBİYYAT

1. Bayi E. Indigenous Peoples of Brazil: Guardians of the Amazon Rainforest. Senior Undergraduate Thesis Submitted to the Department of Political Science at the University of California, San Diego. April 1, 2019. P 65
2. Cartay R. All the Indigenous Peoples of the Amazon Rainforest. // https://delamazonas.com/en /rainforest-indigenous-peoples/ [28.10.2025].
3. Dinh G. Indigenous Culture in the Amazon Case Study: Kayapó and the Belo Monte // https://www.academia.edu/32024838/Indigenous_Culture_in_the Amazon_Case_Study_Kayap [28.10.2025].
4. Ganeri A. Living in the Amazon rainforest. Chicago, Ill.Raintree. 2008. p 32
5. Iriarte J., Elliott S., Maezumi S.Y. et al. The origins of Amazonian landscapes: Plant cultivation, domestication and the spread of food production in tropical South America. Quaternary Science Reviews. 2020. P 29
6. Khalid Z.N. Amazon Rainforest Tribes: Indigenous Communities. // https://www.worldsultimate.net/ amazon-rainforest-tribes.htm [28.10.2025].
7. Oliver J. R. The Archaeology of Agriculture in Ancient Amazonia. Handbook of South American Archaeology. Springer, New York, 2008.
8. Schwartz D. M. Vanishing peoples Yanomami: People of the Amazon. New York: Lothrop, Lee & Shepard Books. 1995. P 56
9. Struggle for land, survival and identity in the Amazon rainforest // https://wwf.panda.org/discover/knowledge_hub/where_we_work/amazon/about_the_amazon/people _amazon/ [28.10.2025].
10. The Ancestral Forest: How Indigenous Peoples Transformed the Amazon into a Vast Garden. August 8, 2024. // https://rainforestfoundation.org/the-ancestral-forest-how-indigenous-peoples-transformed-the-amazon -into-a-vast-garden/ [28.10.2025].
11. Uncontacted peoples: at the edge of survival // https://www.survivalinternational.org/tribes/ uncontacted-brazil [28.10.2025].
12. Yeol C. Indigenous Culture in the Amazon Case Study: Yanomami and the Evolution of a Culture. // https://www.academia.edu/33406028/Indigenous_Culture_in_the_Amazon_Case_ Study_Yanomami_and_the_Evolution_of_a_Culture [28.10.2025].

**АМИНА ИМАНЗАДЕ**
*Азербайджанский университет языков*
*Преподаватель кафедры регионоведения западных стран*

## АМАЗОНСКИЕ МЕСТНЫЕ НАРОДЫ И ИХ ЭТНИЧЕСКИЕ ОСОБЕННОСТИ

Одним из самых сложных и прекрасных природных богатств Вселенной, приютившей множество удивительных существ, являются амазонские леса. Считается, что люди, переселившиеся сюда много веков назад из Азии, создали свой уникальный образ жизни. Они поняли природу, научились слушать её и жить с ней в гармонии. С эпохи Великих географических открытий эти народы, которых мы называем индейцами, всегда привлекали внимание своей самобытной системой верований, этнографическими обычаями и традициями. Амазонские

леса, отличающиеся своей природной красотой и охватывающие огромные территории, к сожалению, не остались незамеченными колонистами - начался процесс их захвата и геноцид индейцев. Начиная с XVI века, число индейцев, подвергшихся нападениям колонизаторов, резко сократилось и продолжает уменьшаться по сей день. Несмотря на то, что государства признают земли и права этих народов, из-за неконтролируемого процесса обезлесения, нападений жадных фермеров и золотоискателей они лишаются своих домов, земель и даже жизни. В данной статье рассматриваются основные племена, проживающие на территории Амазонии, их этнические традиции, вклад в сохранение природы, методы земледелия и проблемы, с которыми они сталкиваютсая в современном мире.

*Ключевые слова:* Амазонка, индеец, племя, анимизм, шаман, Бразилия.

**AMINA IMANZADEH**
*Azerbaijan University of Languages*
*Lecturer of the Department of Regional Studies of Western Countries*

## INDIGENOUS PEOPLES OF THE AMAZON AND THEIR ETHNIC CHARACTERISTICS

One of the most complex and beautiful natural treasures of our universe, which hosts magnificent beings, is the Amazon rainforest. It is believed that people who migrated from Asia many centuries ago came to these lands and created their own unique lifestyle. Since the Age of Great Geographical Discoveries, these peoples, whom we call Indians, have always attracted attention with their unique belief systems and ethnographic traditions. Unfortunately, the Amazon rainforest, distinguished by its natural beauty and vast territory, did not escape the attention of colonists—the process of conquest and the genocide of the Indians began. Since the 16th century, the number of Indians who were subjected to colonial attacks has significantly decreased and continues to decline even today. Despite the recognition of these peoples' lands and rights by governments, due to uncontrolled deforestation, attacks by greedy farmers, and gold-hunting bandits, they continue to lose their homes, lands, and even their lives. This article discusses the main tribes living in the Amazon region, their ethnic traditions, their contributions to nature, agricultural methods, and the problems they face in the modern era.

*Keywords:* Amazon, Indian, tribe, animism, shaman, Brazil.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 28 oktyabr 2025-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 30 noyabr 2025-ci il.*
*Rəyçilər: t.ü.f.d. Rəna Rəcəbli, t.e.d. Əmrah Dadaşov.*